DOI: https://www.doi.org/10.36719/2663-4619/80/62-66

Gülər Sabir qızı Abdullayeva
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
dissertant
guler 32114@gmail.com

FÜZULİ VƏ QALİB POEZİYASI OXŞAR JANRLAR MÜSTƏVİSİNDƏ

Xülasə

XVIII əsr Türk sufi şairi Şeyx Qalib Fizuli ənənələri davam və inkişaf etdirən şairlərdən biri olmuşdur. Bu iki sənətkarı birləşdirən ortaq xüsusiyyət onların eyni mövzu və janrlarda şeirlər yazmasıdır. Qalibin qəzəl janrında yazdığı şeirlər Füzulinin qəzəllərini xatırladır. Şeyx Qalib divanında Füzuliyə həsr olunmuş şeirlər arasında təxmislərlər xüsusi yer tutur. Bu onu göstərir ki, hər iki şairin əsərlərində forma və məzmun baxımından ortaq xüsusiyyətlər vardır.

Mövzu baxımından hər iki şairin yaradıcılığında məhəbbət mövzusu öndə gedən yerlərdən birini tutur. İlahi eşqi sonsuz məhəbbətlə tərənnüm edən bu şairlər dünya eşqinin əzabını yaşamış və tale yüklü bir ömür yaşayaraq ilahi eşq yaşantılarını şeirə çevirə bilmişlər. Məqalədə hər iki şairin qəzəl janrında yazdığı şeirlər müqayisəli şəkildə təhlil olunur.

Açar sözlər:*Məhəmməd Füzuli,Türk ədəbiyyatı, Şeyx Qalib, qəzəl, ilahi eşq*

Gular Sabir Abdullayeva

Fuzuli and Galib poetry in similar genres

Abstract

The eighteenth-century Turkish Sufi poet Sheikh Galib Fuzuli is one of the poets who continued and developed the traditions. The common denominator that unites these two artists is their theme in terms of both theme and genre. His poems in the ghazal genre are reminiscent of Fuzuli's ghazals. Among the poems dedicated to Fizuli in Sheikh Galib's divan, takhmis have a special place. This shows that both poets have common features in their work in terms of form and content. From the point of view of the theme, the theme of love occupies a leading place in the works of both poets. These poets, who sang of divine love with infinite love, experienced the sufferings of worldly love and were able to turn their emotional turmoil into poetry by living a life full of destiny. The article describes in detail the subject matter of the ghazals of both poets.

Key words: *Turkish literature, Sheikh Galib, Muhammad Fuzuli, divine love, ghazal*

Giriş

Məhəmməd Füzuli XVI əsr Azərbaycan ədəbiyyatının və dilinin inkişafında müstəsna rolu olmuş, həm də özündən sonrakı dünya ədəbiyyatının inkişafına böyük təkan vermişdir. “Füzuli öz dühası ilə Azərbaycana parlaq klassik bir ədəbiyyat verdi” (Cabbarlı, 2005: 237) .Onun təsiri həm də türk dünyasında görkəmli şairlərin yetişməsində böyük rol oynamışdır. Özünəməxsus yaradıcılıq yolu keçən sənətkar böyük irsə sahibdir. Həm Füzuli, həm də Şeyx Qalib yaradıcılığında forma, məzmun cəhətdən onları birləşdirən ortaq cəhətlər var. Bu iki sənətkarı birləşdirən bir ortaq cəhət varsa, o da məhəbbət, eşq mövzusudur. İlahi eşqi sonsuz məhəbbətlə tərənnüm edən bu şairlər dünyəvi eşqin əzablarını dadmış, tale yüklü bir həyat yaşamaqla ruhi sarsıntılarını şeirə çevirə bilmişlər.

Bu şairlər qəzəl janrının ölməz nümunələrinin yaratmışlar. Bu janrda yazmaq onların zövqlərinə uyğun gəldiyindən özlərinin duyğu və düşüncələrini bu janrda daha ətraflı əks etdirə bilmişdirlər. Qəzələ böyük dəyər verən Füzuli bu janrı dövrünün düşünən adamlarına şəfa bağışlayan bir nemət “ səfabaxşı-əhli nəzər” olduğunu yazır. Şair qəzəl yazmağı həm də “gülü- bustani-hünər” (hünər bostanının gülü) deyərək vəsf edir. Bu şairlərə görə qəzəl yazmaq sadəcə əyləncə, ötəri duyğuları əks etdirən bir hal deyil, o, hikmət sahibinin lirik duyğularının, ruhi aləminin əksidir. O dövrdə qəzəl yazmaq şairin qüdrətini artırır, ona şöhrət gətirirdi. Füzuli türk divanının əvvəlində yazır:

Qəzəl bildirir şairin qüdrətini,
Qəzəl artırır nazimin şöhrətini.
Könül, gərçi əşarə çox rəsm var,
Qəzəl rəsmin et cümlədən ixtiyar.
Qəzəl de ki, məşhuri-dövran ola,
Oxumaq da, yazmaq da asan ola. (Füzuli, 1984: 9.)

Füzulinin qəzələ verdiyi dəyər şeirdə yer almaqdadır. Gözəl söz söyləmək şairi məşhurlaşdırır, cəmiyyət içərisində onun hörmətli və nüfuzlu etdiyini deyir. Bu fikrlərin təzadlı qovşağında şairin zamanədən şikayətini və nəzmin xar olduğu bir dövrdə yaşamasından şikayətçi olduğunun da görürük.

Bir dövrdəyəm ki, nəzm olub xar,
Əşar bulub kəsadi-əsrar.
Ol rütbədə qədrinəzmdir dun,
Kim , küfr oxunur kəlami-mövzun.

Şair "Leyli və Məcnun" poemasının əvvəlində isə nəzm yazmaq sənətini zamanəyə qarşı qoyur. Bu haqda M.C. Paşayev yazır: " Şair özünü, öz yaradıcılıq qüdrətinin iqtisadi- dövrana qarşı qoyur".(Paşayev, 1994: 189-190.) Buna baxmayaraq, Füzuli həm öz zamanında, həm də bu dünyada qəzəllə şöhrət tapdı.

Hər iki şairin divanında aparıcı yeri eşq mövzulu qəzəllər tutur. Bu eşq konsepsiyası onların yaradıcılığında müxtəlif zaman kəsimində dəyişərək ilahi yaradana doğru irələləyir. Bu irəliləyiş ilk olaraq real zəmində aşiq və məşuq arasında baş verir. Füzuli yaradıcılığında bunu belə dilə gətirir:

Könlüm açılır zülfi-pərişanını görcək,
Nitqim tutulur qönçeyi-xəndadını görcək.
Baxdıqca sənə qan saçılır didələrimdən,
Bağrım dəlinir navəki-müjganını görcək. (Füzuli, 1958: 43.)

Yuxarıda verdiyimiz nümunədən görürük ki, şair burada sevgilisini görərkən könlünün sevinməsini , o danışarkən dilinin tutulduğunu, ona baxarkən gözlərindən sevinc saçdığını, məşuqənin kirpiklərinin onun bağrına sançıldığını poetik sözün qüdrəti ilə dilə gətirir. Bütün bunlar real bir sevən aşiqin ruhi halını Füzuli bizə çatdırır. "Füzuli kainatın hər zərrəsində Allahın qüdrət və hikmətini görür, mövcudatı onun varlığına, birliyinə dəlil sayır, hər varlıqda onun sifətinin təcəllasını dərk edirdi. Füzulinin səxsiyyəti heç bir çərçivəyə sığmadığı kimi, onun məhəbbəti kainata sığmırdı. Bu üzdən də şairin beytlərində ilahi məhəbbətlə insani məhəbbət qovuşmuş şəkildə əks olunur". (Qocayeva, 2010: 62.) Buna müvafiq olaraq Şeyx Qalib də ilk öncə dünyəvi məhəbbəti vəsf edərək deyir:

Eşqi söhbət mətləi divanı səhəttir mənə,
Məqtəi nəzmi həyatım qatı ülfətdir mənə. (Qalib, 2011: 348.)

Qalib qəzəllərində də mərkəz nöqtəsini məhəbbət təşkil edir. Nümunə gətirdiyimiz beytdən görürük ki, aşiq məşuqənin söhbətindən çox məmnundur. Sevgilisi ilə söhbəti dərdinə dəva, ömrünə şəfadır, bu söhbətlə onunla ülfət yaratmaq, ünsiyyət qurmaq həyatının başlanğıcıdır. Şair dünyəvi eşqin vəsfinindən müxtəlif janrlarda yazdığı müxəmməs, təxmis, qitə, rübailərində söz açır.

Cəm sər əncamını nəql etdi ləbi cam mənə,
Zəhrimar oldu meyi gərdişi əyyam mənə.
Matəmi firqəti dildarda oldum qurban,
Bil əcəb gəldi məhərrəmdə bu bayram mənə. (Qalib, 2011: 349)

Nümunə gətirdiyimiz beytlərdən görürük ki, mey içən aşiq başına gələn əhvalatları yadına salır. Bu şərab ona dünyanın gərdişini zəhrmara çevirir. Sevgilimlə ayrılığın qurbanı oldum, bütün bu bəlalar mənə məhərrəm ayında "bayram" oldu, deyir. Sözü gedən beytlərdə dünyəvi eşqin tərənnümü özünü açıq aydın göstərir. Başqa bir qəzəlində Qalib deyir:

Ol meh bizi tərk eylədi söhbət sənə qaldı,
Ey qəm, yenə meydani məhəbbət sənə qaldı.
Etdin həvəsi vasl ilə cani səri ehda,
Qurbanın olum qeyri mürüvvət sənə qaldı. (Qalib, 2011: 581.)

Şair gözəlin onu tərk etməsindən, məhəbbət meydanında özünün qəm, kədəri ilə yenə baş-başa qalmasından qorxur. Segilisinin yolunda başının belə qurban verməsini istəyən aşiq ondan mərhəmət diləyir, ümidinin onda olmasını deyir. Füzuli isə dünyəvi eşqini belə dilə gətirir:

Gər deyil, bir mah mehrilən mənim tək zar sübh,
Başın açıb nişə hər gün yaxasın yırtıb sübh. (Füzuli, 1958: 112.)

Bu şairlər dünyaya məhəbbət gözü ilə baxdıqları üçündür ki, bütün kainatın məhəbbət əsasında yarandığını zənn edirlər. Onlar səhərin açmasını, kainatın dönməsini, baharın gəlməsini, bülbüllərin oxumasını, pərvanənin şamın ətrafında dövr etməsini məhəbbətin gücü ilə izah edir.

Qalib insanı dərin məhəbbətlə sevən bir sənətkar idi. Onun məhəbbəti pak və ülvi insan hisslərinin tərənnümünü özündə ifadə edir. Onun sevgisində vəfa, sədaqət, səmimiyyət, fədakarlıq var. Onun aşiqi riyadan, ikiüzlükdən, şəxsi mənafedən uzaqdır.

Sünbüli xətləri kim tarıfı küləhdan görünür,
Şerhai nahuni qəm arizi mehdən görünür.
Etmə tayib əzizim gehi rüsvayi eşq,
Bir Züleyxa kimi nakerde günəhdan görünür. (Qalib, 2011: 392.)

Qalib yaradıcılığının əvvəllərində təsvir etdiyi gözəllər mücərrət olmamış, bəzən onların real ünvanları da məlum olmuşdur.

Həzər naz ilə uşşaka bir nigahi o şuhun,
Rəhi niyazda yıllarca intizarına gəlməz. (Qalib, 2011: 62.)

Başqa bir qəzəlində isə şair sevgilisindən ayrılan aşiqin atrıq ondan ümidini üzdüyü, başqası ilə olması aşiqi daha maraqlandırmır. Şair deyir:

Nə çarə eyləyəyim çünki məndən ayrıldun,
Kiminlə istər isən, ey nədimi can, yar ol. (Qalib, 2011: 72.)

Qalib "Qıldım fəraq" rədifli qəzəlində "dərd əhlinin ah quşu olan könlünün " eşq yuvasından pərvaz etdiyini dilə gətirir. İllərdir atəş tapan " Hindi"nin atəştə atmaqdan vaz keçməməsini " şahin baxışlı sevgilisinin ondan vaz keçmədiyin, " eşq xəzinəsini bulan könlünün artıq "Kəbəsini" bərpa etmədiyindən " bu sevginin məxmər gözü üçün sərxoş olması" kimi bənzətmələri dilə gətirib. Qəzəldə deyilir

Murği ahi əhli-dərd lanedən qıldım fərağ,
Gör o Hunduyum ki, atəşxanadan qıldım fərağ.
Besti halü xatun olmam mən, ey şahin nigah,
Tairi qüdsüm ki, dami daneden qıldım fərağ.
Təni pristan eyləsinlər Kəbəi cismi tavar,
Gənci eşqi buldum ol viranədən qıldım fərağ. (Qalib, 2011: 685.)

Füzuli kimi Şeyx Qalib də real, dünyəvi məhəbbətin tərənnümünə həsr etdiyi şeirlərin daxili anlamında ilahi eşq anlayışı gizlənməkdədir. Şeyx Qalib hər şeydən öncə qəlbi Allah eşqi ilə döyünən bir mütəsəvvüf şair olmuşdur. Onun şeirlərinin ideya qaynağını Allah sevgisi, Qurana bağlılıq, peyğəmbərlərə məhəbbət təşkil edir. Mövləvi şeyxi olan Qalib təbii ki, Allah sevgisini bütün yaradıcılığı boyunca qoruyub saxlaya bilmişdir. Füzuli qəzəllərində də biz bu eşqi görürük. Şair qəzəlində deyir:

Oxun təsərrüf etdib cismi, qəsdi-can etdi,
Noleydi rəhm qılıb keçməsəydi canımdan.

Bu haqda Ə. Şahi yazır*:* "Can mənəvi məriətlər idrakından aciz olan "heyvani can" yaxud "bədən canı"ndan ibarətdir. Can mənəvi mərifətlər və ilahi cazibələr əxzinə layiq "ürək canı" yaxud "həqiqi candan"ibarətdir. Qurbanlıq məqamına layiq bilməklə ilahi canalıcı qəmzələrin ötüb keçdiyini tələb edir." (Əsgər, 2011: 111.)

Füzuli şeirlərində olduğu kimi Qalib də sevgilinin üzünü Allahın təcəllası sayır, Allahın insan surətində təcəlla etməsini şeirlərində dilə gətirərək deyir:

Heyrət ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halım görən surət xəyal eylər məni. (Füzuli, 2005: 300.)

Şair bu beyitdə üç dəfə surət kəlməsini müxtəlif anlamlarda işlətmişdir. Gözəlin üzünü görən aşiq onu görərkən lal olduğunu deyirsə, ikinci misradakı surət isə onun vəziyyətini əks etdirir, üçüncü surət isə bu üzün bir xəyal olduğunu dilə gətirir.Qalib isə deyir:

Xabi xəyalı qəfləti aləm sanır görən ,
Mirat içində surəti adəm sanır görən. (Qalib, 2011: 437.)

Şair deyir ki, qəflət yuxusunu görənlər onu aləm sanır. Aləm aynasının içində gördüklərini aləm sanır. Allah özünün varlığını dərk etdirmək üçün insanı özünə bənzər biçimdə yaratdı. Odur ki, İnsani-kamil Allahın surəti anlamındadır. İnsan isə Tanrının surətindəndir. Hər iki sənətkarı heyrətə salan Tanrının gözəlliyidir. Hər iki şairin yaradıcılığında qəm, kədər, həsrət, əsl aşiqin sevinc və şadlığıdır. Kamil insan bütün bu əzablara sinə gərən cəfakeş aşiqlərdir. Bütün bu dərdlərin dərmanı eşqdir. Füzuli deyir:

Eşq imiş hər nə var aləmdə,
Elm bir qeylü qal imiş ancaq .(Füzuli, 2005: 354.)

Divan ədəbiyyatının öyrənilməsində dini ideyalar arasında peyğəmbərlərlə bağlı rəvayət və əhvalatlara xüsusi yer verilir. İstər klassik dövr şairləri, istərsə də orta əsr həm divan şeiri, həm də aşıq şeiri üslubunda yazıb-yaradan şairlər Qurani-Kərim və peyğəmbərlərlə bağlı rəvayətlərə geniş yer vermiş, oradakı əhvalatları poeziyaya gətirmişlər. Hər hansı orta əsr divan şeirini araşdırarkən orada yer alan dini rəvayət və əhvalatların mahiyyətinə varmaq, onların köklərini araşdırmaq həmişə əsas səbəblərdən biri kimi ortaya çıxır. Həm Füzuli, həm də Qalib yaradıcılığında peyğəmbərlərlə bağlı mövzulara müraciət xüsusi yer tutur. Bu hər iki şairi birləşdirən əsas mövzulardan biridir.

Şeyx Qalib divanında Qurani- Kərimdə adı keçən bəzi peyğəmbərlərlə bağlı əhvalatlar poeziyanın süzgəcindən keçərək onlarla bağlı əhvalatlardan söz açılmış, amma bəzilərinin isə sadəcə olaraq adları çəkilmişdir. " Öncə qeyd etmək lazımdır ki, orta çağların bəlağət qurumunda qissə, hekayət, rəvayət, əfsanə və bu sayaq kateqoriyalar ədəbi növ kimi tanınır. Eyni zamanda həmin kateqoriyaların poetik özəllikləri bədii-estetik vasitə kimi çıxış edir. Bir sözlə, qissə, rəmz və işarələrin bədii obrazlar şəklində işlənməsi bədii düşüncə üçün daha önəmlidir. Bir çox sənətkarlar öz yaradıcılığında dastan, hekayə və qissələrdən istifadə edərək onlardan bədii-estetik ideyalarının daha bəlağətli ifadəsi üçün bir örnək kimi faydalanırlar" (Quliyeva, 2008: 156.)

Divanda yer alan qissələrin Qurani-Kərimdən gəlməsi Şeyx Qalib poeziyasının dini-təsəvvüfi qaynağını şərtləndirən əsas amillərdən biridir. "Qissə"kəlməsinin etimoloji anlamının parça, hissə mənasını verməsi , orada olan əhvalatların bir hissəsinin nəqli deməkdir. Dinlə ədəbiyyatın əlaqəsi özünü ən qədim abidələrdə- mifologiyada, folklor mətnlərində, antik yunan və Roma əsatirlərində, eləcə də təkallahlığın yaranmasından sonra qədim səmavi kitablarda (Tövrat, İncil, Quran) bir çox süjet və obrazların incəsənət və ədəbiyyatda öz əksini tapmasında büruzə verir. E. Meletinski ədəbiyyatla dinin vəhdətindən bəhs edərək yazırdı: *"Söz sənətinin genezesi iki cəhətdən sinkretik xarakterdə olan ibtidai mədəniyyətə aparıb çıxarır: birincisi odur ki, burada incəsənətin, dinin və ətraf aləmlə bağlı ilkin təsəvvürlərin başlanğıcı sinkretik vəhdət halında çıxış edirdi, ikincisi bədii fəaliyətin ilk növləri bu və ya digər dərəcədə dini ayinlərlə bağlı olurdu.Burada söhbət incəsənətin dinə tabe olmasından deyil, məhz onların ilk addımlarının ayrılmazlığından gedir"* (Qasımova, 1997: 3.)

Şeyx Qalib divanında ilk peyğəmbər həz. Adəmdən (ə.s.) son peyğəmbər olan Məhəmmədə (ə.s.) qədərə bəzi peyğəmbər haqqında məlumat verilib, onlarla bağlı əhvalatlar şeir dili ilə nəzmə çəkilərək oxuculara çatdırıb. İlk insan olan Adəmin(ə.s) zühuru, bu aləmin yaranmasının da onun adı ilə bağlanması haqqında Qurani-Kərimdə deyilir. "Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Ən-Nisa surəsi) (Qurani-Kərim, 1992: 3.)

Şeyx Qalib bu ayəni poeziyanın dilinə çevirərək ilk insan olan həz. Adəm(ə.s) və bütün insanların onun nəslindən gəlməsini, yəni "Əbül-bəşər" adlandırır.

Adəm ki,cənabi bül-bəşərdir,
Bağı nəbəvidə bir şəcərdir. (Qalib, 2011: 37.)

Və ya

Ol bağı behişti o haqı xürrəm,
Haqq idi vəleyk haqı Adəm. (Qalib, 2011: 37.)

Allah-təala Həvvanı Adəm (ə.s) sümüklərindən yaratmış və onları cənnətdə məskunlaşdırmışdır.

Hamıya məlum olan bir əhvalatı, yəni İblisin təhriki ilə qadağan olunmuş meyvədən yedikləri üçün oradan qovulmuşlar. İlk məkanın da cənnət olması haqqında Şeyx Qalib belə deyir:

Mehrə mahal oldu sübhi –xürrəm,
Təkrar behiştə girdi Adəm. (Qalib, 2011: 37.)

Allah buyurdu: "Bir-birinizə düşmən olaraq (Cənnətdən) yer üzərinə enin. Orada sizin ücün bir müddət(əcəliniz çatana qədər) sığınacaq və dolanacaq, yaşayış üçün lazım olan hər şey var.

Şeyx Qalib divanı üzərində apardığımız araşdırmadan məlumdur olub ki, şair divanında peyğəmbərlərlə bağlı qissə və rəvayətləri poetik düşüncənin dili ilə oxuculara çatdıra bilmişdir. Peyğəmbərlərə sevgi, onların vəsfi təsəvvüf ədəbiyyatında xüsüsi yer tutan mövzulardan biri kimi bütün sənətkarların yaradıcılıq mənbəyi olmuşdur. Bu məsələ barəsində S.Hacı yazır: "Təsəvvüf ədəbiyyatında Peyğəmbərlə(ə.s) bağlı yazılmış şeirlərin bir neçə özəlliyi var; bu şeirlərdə peyğəmbər sevgisi, peyğəmbər obrazı, peyğəmbər əxlaqı ana mövzulardan biridir. Bu mövzu təsəvvüf təliminin ayrılmaz tərkib hissəsidir. Bu şeirlərin üslubunda nəsihət ruhu hakimdir, onların təlim, təbliğ yönü çox güclüdür" (Hacı, 2008: 58.)

Nəticə

Beləliklə, Qalib yaradıcılığında Füzulinin təsiri həm mövzu, həm də janr baxımından özünü göstərir. Bu yaxınlıq Qalib yaradıcılığının hər sahəsində hiss olunur.

Ədəbiyyat

1. Cabbarlı, C. (2005), Əsərləri 4 cilddə. IV c. Bakı: Şərq-Qərb.
2. Əsgər, Ş. (2011), Məhəmməd Füzulinin qəzəllərinin irfani şərhi. III cilddə. Bakı : Nurlar.
3. Füzuli, M. (1984), Seçilmiş əsərləri. Tərtib və müqədimə Əkrəm Cəfərindir . Bakı: Yazıçı
4. Füzuli, M. (1958), Seçilmiş əsərləri. Tərtib edən: Məmmədağa Sultanov. Bakı: Azərb. Dövlət Nəşriyyatı
5. Füzuli, M. (2005), Əsərləri. 6 cilddə I c. Tərtib edən: Həmid Araslı. Red: Teymur Kərimli, Ön söz: H. Araslı və Samət Əlizadə. Bakı: Şərq-Qərb
6. 6.Hacı, S. (2008), Həzrəti Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və həzrət Məhəmməd (ə.s.ə).II kitab.
7. Qasımova, A. (1997), Klassik Azərbaycan şeiri və Quran Qissələri. Namizədlik avtoreferatı.
8. Qocayeva, S. (2010), XVI əsrin Azərbaycan ədəbiyyatı və təsəvvüf. Bakı
9. Qurani-Kərim, (1992), Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və Vasim Məmmədəliyev, Ön söz: V.Məmmədəliev, Qeyd və şərhlər Z.Bünyadovundur. Bakı: Azərnəşr
10. Quliyeva, M. (2008), Quran bəlağəti və Azərbaycan ədəbiyyatı, Elmi məsləhətçi Vasim Məmmədəliyev. Elmi redaktor: Nəsib Göyüşov, S.Şıxıyeva. Rəyçi İ.Həmidov, Bakı: Nafta-Press
11. Paşayev, M . (1994), Füzuli sənətkarlığı. Bakı: Maarif
12. Şeyx, Q. (2011), Divan. Hazırlayan, Naci Okcu, Ankara: Deyanet Vekfi Yayınları.

Göndərilib: 20.05.2022 Qəbul edilib: 24.06.2022